**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIV buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIV выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXIV edition, Baku, 2023*

**UOT 78.**
**DOI: 10.52094/3005-9941.44.2023.086**

**Humay Saleh qızı Mansurova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənbət Universiteti**
**Əməkdar müəllim, dosent**

# TÜRKİYƏ BƏSTƏKARLIQ VƏ PİANOÇULUQ SƏNƏTİNİN İNKİŞAFINDA FAZİL SAYIN ROLU

**Xülasə:** Təqdim olunan məqalə dünya şöhrətli bəstəkar və pianoçu Fazil Sayın yaradıcılığına həsr olunmuşdur. Məqalədə Fazil Sayın bir bəstəkar və pianoçu kimi yaradıcılıq fəaliyyəti işıqlandırılaraq, onun ifa etdiyi və bəstələdiyi əsərlərin adları sadalanır. İlk fortepiano dərslərini Mithat Fenmendən alan Fazil Say sonradan David Levindən fortepiano ifaçılığının sirlərini mənimsəyir. O, Bax, Motsart, Bethoven, Stravinski və s. görkəmli bəstəkarların əsərlərini virtuozluqla təfsir edir.

**Açar sözlər:** Fazil Say, bəstəkar, pianoçu, caz, Nyu-York, Patrisiya Kapaçinskaya, Maksim Venqerov

Bəstəkarın "İpək Yolu" fortepiano konserti, "Nəsrəddin hocanın rəqsləri" pyesi, "Nazim" oratoriyası və digər məşhur əsərləri fəlsəfi mənası və zəngin musiqisi ilə çox sevilir. Bəstəkarın əsərlərində caz janrı ilə türk xalq musiqisi peşəkarlıqla uzlaşdırılmışdır.

Fazil Say dünya musiqi mədəniyyətində istedadlı bəstəkar və pianoçu kimi böyük şöhrət qazanmışdır. Artıq iyirmi beş ildən çoxdur ki, Fazil Say peşəkar bəstəkarlıq və pianoçuluq istedadı ilə dinləyiciləri və tənqidçiləri valeh edir. O, bəstəkar və pianoçu kimi Türkiyənin ifaçılıq sənətinə böyük töhfələr bəxş etmişdir.

Görkəmli türk rəssamı Zəhra Sayın nəvəsi – Fazil Say 1970-ci ildə anadan olub. Üç yaşında fleytada "Ax! vous dirai-je, maman" improvizə edəndə atası onun musiqi istedadına heyran qalır və Sayı fortepiano dərsləri almaq üçün Mithat Fenmenin yanına aparır. Məşhur türk pianoçusu Mitat Fenmen Fransada Alfred Korto ilə birgə təhsil almışdır. Mithat Fenmen kiçik yaşlı Sayın musiqi eşitmə qabiliyyətini və xüsusi musiqi istedadını görüb onunla böyük məmnuniyyətlə məşğul olmağa razılaşır. Mithat Fenmenlə fortepiano dərsləri nəticəsində Fazil Sayın improvizasiya qabiliyyəti daha da inkişaf edir və onda bəstəkarlıq sənətinə də böyük maraq yaranır. Belə ki, Fazil Say fortepiano üçün ilk əsərini 14 yaşında Ankara Konservatoriyasında təhsil alarkən bəstələyir.

1987-ci ildən Fazil Say Düsseldorfda Robert Şuman adına Musiqi Kollecində David Levindən fortepiano dərsləri alır. Elə həmin ildə bəstəkar Aribert Reyman Ankaraya konsert-qastrol səfərində Fazil Sayın ifasını eşidir və onu yüksək qiymətləndirərək görkəmli pianoçu Devid Levinə deyir: "*Fazil Sayın pianoçu kimi böyük gələcəyi var*" [6].

Fazil Say Almaniyada təhsil aldığı illərdə bir sıra əsərlər bəstələyir: Piano üçün sonata, violonçel və piano üçün ballada, fortepiano üçün müqəddimə, fleyta və piano üçün pyeslər, gitara üçün konsert, piano üçün süita, violin və piano üçün "Schwarze Hymnen" və s. [3, s.42].

1991-1995-ci illərdə isə Berlində təhsilini davam etdirərək həm bəstəkarlıq və həm də pianoçuluq sənətinin sirlərinə daha da dərindən yiyələnir. Onun ifaçılıq texnikası repertuarı çox tez və inanılmaz şəkildə mənimsəməyə imkan verirdi.

Fazıl Say caz janrına böyük maraq göstərir və onun bütün əsərlərində caz elementləri diqqəti cəlb edir. Bəstəkarın fortepiano üçün konsertlərinin musiqisi caz improvizasiyası ilə seçilir.

1993-cü ildə V.Motsartın "Türk rondo"su əsasında bəstələdiyi caz kompozisiyası Türkiyə pianoçuluq məktəbində bu sahədə böyük yenilik idi [2, s.7].

İlk sınağın uğurlu nəticələrini görən bəstəkar-pianoçu 1995-ci ildə Paqanini mövzusunda caz kompozisiyasını bəstələyir. Dicey ilə fortepiano üçün pyesi də bu janr sahəsində ilk addım olub, bütün caz və roksevərlərin repertuarında yer alır.

Fazil Sayın əsərlərində caz və türk xalq musiqisi elementləri peşəkarlıqla uzlaşdırılır. Zəngin melodik ideyalar, dəyişkən və çox vaxt rəqsə bənzər ritm, romantik şərq intonasiyaları bəstəkarın yaradıcılıq üslubunun xarakterik xüsusiyyətləridir.

1990-2000-ci illərdə o, fasilələrlə Nyu-Yorkda fəaliyyət göstərir və bu illər ərzində bir-birindən rəngarəng əsərlər yazır: Gitara üçün beş konsert, kamera orkestri üçün simfoniya, piano üçün "Qara Dünya", violin və piano üçün sonata, piano üçün caz variasiyaları, caz kvarteti üçün pyeslər, "Nazim" oratoriyası və s.

2002-ci ildə Fazil Say Fransa Radiosu və Kurt Masur tərəfindən üçüncü fortepiano konsertinə sifariş qəbul edir. Konsert Fransa Radiosunun Milli Orkestrində dirijor Eliahu İnbalın rəhbərliyi ilə səsləndirilir. Bir ildən sonra isə İstanbul festivalında onun "Requiem für Metin Altok" oratoriyası fəxri mükafata layiq görülür. O, aparıcı dirijorlarla əməkdaşlıq edərək, İ.S.Bax, İ.Haydn, V.Motsart, L.Bethovenin və müasir bəstəkarların əsərlərini, o cümlədən özünün fortepiano üçün bəstələrini interpretasiya edir.

2005-ci ildə Lüserndə fortepiano üçün "Düşünən Eynşteyn" adlı dördüncü konsertinin premyerası müvəffəqiyyətlə baş tutur.

Bəstəkar Bela Bartok, Corc Enesku və Georqiy Liqetinin ənənələrini davam etdirərək müxtəlif janrlı əsərlərində türk və qonşu xalqların musiqi intonasiyalarından bəhrələnir.

2006-cı ildə Venada bəstəkarın "Patara" baletinin premyerası böyük anşlaqla keçirilir. "Patara" baleti V.Motsartın soprano, fortepiano və türk xalq çalğı alətləri üçün sonatasının mövzusu əsasında bəstələnmişdir.

Bəstəkarın fortepiano üçün bəstələdiyi "Qumru" balladası olduqca gözəl, sadə, yaddaqalan və zərif melodiyası ilə bütün dünyada məşhurlaşmışdır. Sadə üç hissəli

formada bəstələnən “Qumru” balladasının melodiyası xalq musiqi intonasiyaları üzərində qurulmuşdur. Ballada fortepiano ifaçıları tərəfindən çox sevilir və müntəzəm olaraq ifa edilir.

Fazil Say bəstəkarlıq və pianoçuluq fəaliyyətini paralel şəkildə davam etdirir. Bir pianoçu kimi onun repertuarında klassik bəstəkarların əsərləri ilə yanaşı müasir bəstəkarların da əsərləri yer alır. O, İ.Stravinskinin iki fortepiano üçün “Müqəddəs Yaz” əsərini özünün solo ifası üçün işləyərək böyük şövqlə interpretasiya edir.

Bəstəkarın fortepiano üçün Aşıq Veysələ həsr olunmuş “Qara dünya”, ney ilə orkestr üçün “Hezarfen” konserti, fortepiano üçün balladaları, piano ilə orkestr üçün “Su”, “Troya” sonatası, “İpək Yolu” fortepiano konserti, 2 piano və zərb alətləri üçün variasiyaları, “Anadolunun sükutu” fortepiano konserti, violin ilə orkestr üçün “İda dağı” sonatası, “Hindu rəqsləri”, Atatürkün xatirəsinə həsr olunmuş “Hərəkətli malikanə”, “Mesopotamiya”, “Kainat” simfoniyaları, “Nəsrəddin hocanın rəqsləri” pyesi, trompet konserti, “1001 gecə” adlı violin konserti, solo violin üçün “Kleopatra” pyesi, “Çin” rapsodiyası, piano üçün “İstanbulda qış” pyesi, “Yay” variasiyaları və s. əsərləri fəlsəfi mənası və zəngin musiqisi ilə çox sevilir.

Fazil Sayın kamera-instrumental əsərləri Salzburq Festivalı, Dortmund Konsert Zalı, Şlezviq-Holşteyn, Meklenburq-Ön Pomeraniya festivalları, Münhen Biennale və bir sıra mötəbər tədbirlərdə səslənir.

Fazil Sayın pianoçu kimi Fransada konsertləri musiqisevərlər tərəfindən böyük rəğbətlə qarşılanır və Fransanın “Le Figaro” qəzeti onu dahi adlandıraraq yazır: *“Fazil Sayın simfonik və kamera orkestrləri ilə çıxışlarını müasir pianoçuluq sənətinin qələbəsi kimi dəyərləndirmək olar”* [11, s.42].

Uzun illər violin ifaçıları: Patrisiya Kapaçinskaya və Maksim Venqerovla duetləri ilə bütün dünyada məşhurlaşır. Digər layiqli tərəfdaşları: Argentinalı violonçel ifaçısı Sol Qabetta, İstanbulun Borusan kvarteti, Minetti Kvarteti, Marianna Crebassa və digər türk instrumental ifaçıları misal çəkmək olar.

2005-2011-ci illərdə Dortmund konsert zalında, Berlin Konzerthaus rezidensiyasında və Şlezviq-Holşteyn festivalında yüksək səviyyəli interpretasiyası ilə seçilir. Eyni zamanda Paris, Tokio, Meran, Hamburq və İstanbulda keçirilən festivallarda da öz ifası ilə mükafatlarla təltif edilir. Onun Frankfurt am Main şəhərindəki Hessischer Rundfunk rezidensiyasında çıxışı türk dünyasının qələbəsi idi. Bax, Motsart, Bethoven, Gerşvinin və Stravinskinin əsərlərinin səsyazmaları tənqidçilər tərəfindən yüksək qiymətləndirilmiş və bir neçə mükafata layiq görülmüşdür. Fazil Sayın Rusiyada konsert-qastrol səfərləri olduqca böyük uğurla keçir və burada o, bir pianoçu-bəstəkar kimi məşhurlaşaraq, NAİV (Новые Арлекины и Вольтижеры) Rusiya pank-rok qrupu ilə müqavilə imzalayır.

Dünya şöhrətli pianoçu və bəstəkar Fazil Say 2019-cu ildə Almaniyada möhtəşəm Federal Prezident Konsertində çıxış edərək, tanınmış bəstəkarların əsərlərini və özünün bu konsert üçün bəstələdiyi bir-neçə pyeslərini ifa edir. Konsertdə dirijor Stiven Sloane və Bremen Filarmoniya Orkestrinin müşayiəti

dinləyicilərin xüsusi alqışları ilə qarşılanır. Almaniyanın Prezidenti Frank-Valter Ştaynmayer və xanımının da qatıldığı konsert bütün dünyaya səs salır.

2022-ci ilin may ayında Fazil Say ölkəmizə konsert-qastrol səfərinə dəvət alaraq, böyük məmnuniyyətlə Heydər Əliyev Sarayında yüksək səviyyəli çıxışlar nümayiş etdirir. Dünya şöhrətli pianoçu Azərbaycanlı violonçel ifaçısı Camal Əliyevlə əməkdaşlıq edərək, onunla birgə Amerika və Kanadada silsilə konsert proqramları verir. Amerikanın Los-Anceles, Nyu-York, Çikaqo, Vaşinqton, Toronto və Boston şəhərlərində keçirilən konsertlərdə hər iki ifaçı virtuozluq nümayiş etdirir.

Fazil Say bəstəkarlıq və pianoçuluq fəaliyyətinə görə bir sıra fəxri mükafatlarla təltif edilmişdir: Gənc Konsert Solistləri Yarışması Avropa Qalibi, Gənc Konsert Solistləri Müsabiqəsinin Dünya Qalibi, Avropa Birliyi Piano müsabiqəsinin qalibi, Radio France/Beracasa Foundation mükafatçısı, Boston Metamorphosen Orchestra Solist, Telerama Mükafatı, RTL Televiziya mükafatı, Le Monde de la Musique mükafatı, Diapason d'Or (Qızıl Rekord) mükafatı, Classica mükafatı, Avstriya Radio-TV mükafatı, Deutsche Phono Akademie ECHO mükafatı, İlin Bəstəkarı Mükafatı, Andante Klassik Musiqi mükafatları, İlin Pianoçu Mükafatı, Andante Klassik Musiqi mükafatları, Almaniyanın ən əhəmiyyətli klassik musiqi hadisələrindən biri olan Rheingau Musiqi Festivalı mükafatı, Echo Musiqi mükafatı, Fransa Respublikaçı Dünyəvilik Komitəsi tərəfindən Beynəlxalq Dünyəvilik mükafatı, Beynəlxalq Bethoven İnsan Haqları, Sülh, Azadlıq, Yoxsulluğa Qarşı Mübarizə mükafatı və s. [9].

Beləliklə, görkəmli türk bəstəkarı və pianoçu Fazil Say Türkiyə musiqi mədəniyyətinin inkişafında və təmsil olunmasında mühüm rol oynayır. Fazil Sayın bir pianoçu kimi yüksək səviyyəli interpretasiyaları və bəstələdiyi əsərlər Azərbaycan və bir sıra xarici ölkələrin musiqiçiləri üçün bir məktəbdir.

## Ədəbiyyat siyahısı:

1. Татьяна Давыдова. «Крейцеру»-«Крейцерово», Культура, № 5 (7413), 5-11 февраля 2004 г.
2. Илья Овчинников. Турецкое рондо на черной земле Архивная копия от 30 сентября 2007 на Wayback Machine // Газета, № 94, 05 июня 2006 г.
3. Skripka və fortepiano üçün Schwarze Hymnen, Verlag für Musik-Enzyklopaedie, 1987.
4. Nəsrəddin Hocanın Rəqsləri (Piano üçün), Yapı Kredi Yayınları, İstanbul, 1990.
5. Fantastik Pyeslər (Piano üçün), Yapı Kredi Yayınları, İstanbul, 1993.
6. Paqanini Variasiyaları (Piano üçün), Yapı Kredi Yayınları, İstanbul, 1995.
7. Sonata (violin və piano üçün), Yapı Kredi Yayınları, İstanbul, 1997.
8. İpək yolu (piano Konserti), Yapı Kredi Yayınları, İstanbul, 1998.
9. https://ru.wikipedia.org/wiki_Fazıl_Sai
10. https://az.rayhaber.com/2020/10/fazil-say-kimdir
11. Жан-Пьер Тиолле. Neva éditions, 2015, с.193. ( ISBN 978-2-3505-5192-0 )

**MƏDƏNİYYƏT DÜNYASI**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XXXXIV buraxılış, Bakı, 2023
**МИР КУЛЬТУРЫ**
*Азербайджанский Государственный Университет Культуры и Искусств, XXXXIV выпуск, Баку, 2023*
**THE WORLD OF CULTURE**
*Azerbaijan State University of Culture and Art, XXXXIV edition, Baku, 2023*

**Хумай Салех кызы Мансурова**

## Роль Фазиля Сая в развитии композиторского искусства и игры на фортепиано в Турции

**Резюме:** Свои первые шаги в искусстве игры на фортепиано Фазиль Сай сделал под руководством Митхата Фенмена, учившегося в Париже у Альфреда Корто. Затем Фазиль учился фортепианному мастерству как классический пианист у Дэвида Левина. Техника Сая позволила ему очень быстро и с невероятной легкостью освоить основной репертуар. Изысканное и точное исполнение Баха, Гайдна и Моцарта, виртуозная яркость в произведениях Листа, Мусоргского и Бетховена принесли пианисту победу. Фазиль Сай сотрудничал с ведущими дирижёрами, таким образом возник обширный репертуар. Слушательский успех его лучших выступлений, можно, без преувеличения, определить как ошеломляющий. Недаром французская газета «Le Figaro» назвала его гением. Сай много выступал дуэтом со скрипачом Максимом Венгеровым их концерт состоялся и в Москве.

Среди сочинений Фазыла Сая наибольшее признание получили Второй концерт для фортепиано с оркестром «Шёлковый путь», «Четыре танца для Ходжи Насреддина» для фортепиано, оратория «Назым» на стихи Назыма Хикмета. Многие произведения Фазыла Сая соединяют академическую традицию с элементами джаза и турецкой народной музыки.

**Ключевые слова:** Фазиль Сай, композитор, пианист, джаз, Нью-Йорк, Патрисия Капачинская, Максим Венгеров

**Humay Saleh gizi Mansurova**

## The role of Fazil Say in the development of compositional art and piano playing in Turkey

**Summary:** Fazıl Say was born in 1970. With his extraordinary pianistic talents, Fazıl Say has been touching audiences and critics alike for more than twenty-five years, in a way that has become rare in the increasingly materialistic and elaborately organised classical music world. Say wrote his first piece-a piano sonata, at the age of fourteen, when he was a student at the Conservatory of his home town Ankara. It was followed, in this early phase of his development, by several chamber works without an opus number, including Schwarze Hymnen for violin and piano and a guitar concerto. He subsequently designated as his opus 1 one of the works that he had played in the concert that won him the Young Concert Artists Auditions in New York: the Four Dances of Nasreddin Hodja. This work already displays in essence the significant features of his personal style: a rhapsodic, fantasia-like basic

structure; a variable rhythm, often dance-like, though formed through syncopation; a continuous, vital driving pulse; and a wealth of melodic ideas that may often be traced back to themes from the folk music of Turkey and its neighbours. Guest appearances have taken Fazıl Say to countless countries on all five continents; the French newspaper "Le Figaro" called him 'a genius'. He also performs chamber music regularly: for many years he was a part of a fantastic duo with the violinist Patricia Kopatchinskaja. Other notable collaborators include Maxim Vengerov, the Minetti Quartet, Nicolas Altstaedt and Marianne Crebassa.

**Key words**: Fazil Say, composer, pianist, jazz, New York, Patricia Kapachinskaya, Maxim Vengerov

**Məqalənin redaksiyaya daxil olma tarixi: 02.09.2023**